# Kitaba münasibət dəyişməlidir




**Mədəniyyət sərvətimizin saxlanc yerlərindən ən mühümü kitabxanalardır. Kitabxanalarda ədəbi-bədii, tarixi, elmi-texniki əsərlər, dərs vəsaitləri, mətbu nəşrlər qorunub saxlanır, geniş oxucu kütləsinin ixtiyarına verilir, zəngin bilik xəzinəsi kimi fəaliyyət göstərir.**

Son dövrdə kitabxana şəbəkəsinin genişləndirilməsi, onun maddi-texniki bazasının möhkəmləndirilməsi, fondlarının zənginləşdirilməsi, dünya kitabxanaları ilə faydalı əlaqələrin qurulması yönümündə məqsədli işlər aparılır.

İnformasiya cəmiyyəti və biliklər cəmiyyətinin qurulmasında kitabxanaların üzərinə böyük vəzifələr düşür. Kitabxanalar əhalinin bütün təbəqələrinə informasiya xidməti göstərən yeganə sosial institutdur. Məhz kitabxanalar vasitəsilə cəmiyyətin intellektual potensialının formalaşması və inkişafı kimi funksiyalar yerinə yetirilir. Kitabxana-informasiya şəbəkəsinin inkişafı əhalinin mədəni səviyyəsinin yüksəlməsinə, onların fasiləsiz təhsilə və informasiyaya olan tələbatının ödənilməsinə geniş imkan yaradır.

M.Qorki adına Mərkəzi Səyyar Kitabxana Fondu Bakı şəhərində fəaliyyət göstərən mədəniyyət ocaqlarından biridir. Kitabxanamızın xidmətindən bütün şəhər əhalisi istifadə edir. Öz işində daim yeniliyə can atan, kitabla xidmət işini günün tələbləri səviyyəsində qurmağa çalışan kitabxananın ümumi fondu hazırda 186475 nüsxə təşkil edir. 2009-cu ildə kitabxana üzrə illik kitab verilişi 310220 nüsxə, oxucuların sayı 15470 nəfər olmuşdur.

Cari ildə kitabxananın maddi-texniki bazasının möhkəmləndirilməsi və oxuculara göstərilən xidmətin səviyyəsinin yüksəldilməsi sahəsində bir sıra işlər görülmüşdür (ədəbiyyat və digər inventar).

2009-cu ildə M.Qorki adına MSKF-də tarixi gün-



Xalq artisti Afaq Bəşirqızı ilə görüş

lər, bayramlar, yubileylər müxtəlif tədbirlərlə qeyd olunmuşdur.

20 Yanvar faciəsinin ildönümü ilə əlaqədar kitabxanada şəhidlərin xatirəsi yad edilmiş, "Unudulmaz qan yaddaşımız" adlı kitab sərgisi nümayiş olunmuşdur.

2 Fevral Gənclər günü, 21 Fevral Beynəlxaq Ana Dili Günü, 26 Fevral Xocalı faciəsinin 17-ci ildönümü, 8 Mart Beynəlxalq Qadınlar Günü, 10 Mart Milli Teatr Günü, 31 Mart Azərbaycanlıların Soyqırımı Günü, 2 may Türk Dünyasının Həmrəylik Günü, 9 may alman faşizmi üzərində qələbənin 64-cü ildönümü, 28 may Azərbaycan Respublikası Günü, 1 iyun Uşaqları Beynəlxalq Müdafiə Günü, 5 İyun Ətraf Mühitin Mühafizəsi Günü, 15 iyun Milli Qurtuluş Günü, 22 iyul Milli Mətbuat və Jurnalistika Günü, 1 avqust Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü, 12 avqust Beynəlxalq Gənclər Günü, 15 sentyabr Bilik Günü, 18 sentyabr Milli Musiqi Günü, 20 sentyabr Neftçilər Günü, "Əsrin müqaviləsi"nin imzalanmasının 15 illiyi müxtəlif tədbirlərlə qeyd olunmuş, həmçinin rus yazıçısı N. Qoqolun anadan olmasının 200, yazıçı-dramaturq N.Vəzirovun 155, xalq yazıçısı Mehdi Hüseynin 100, şair N. Hikmətin 80, A. Səhhətin 135, xalq şairi H. Arifin 85, alim, şair A. Bakıxanovun 215, rus yazıçısı N. Ostrovskinin 105, C. Məmmədquluzadənin 140, C. Cabbarlının 110, İ. Əfəndiyevin 95 illik yubileyləri ilə əlaqədar kitabxanada maraqlı tədbirlər planı hazırlanmış və həyata keçirilmişdir.

Azərbaycan Respublikası Konstitusiyasına əlavələr və dəyişikliklər edilməsi haqqında Referendumla əlaqədar oxucular arasında maariflndirmə və izahat işinin aparılması kitabxanaçıların diqqət mərkəzində olmuşdur. Bu məqsədlə əyani və şifahi təbliğat formalarından geniş istifadə edilmiş, Referendumun keçirilməsi ərəfəsində tədbir təşkil olunmuşdur. Tədbirdə Azərbaycan Respublikası Konstitusiyasının yaranması tarixindən, ona əlavə və dəyişikliklər edilməsinin zamanın tələbindən irəli gələn bir zərurət olmasından danışılmış, müstəqil Respublikamızın Konstitusiyasının qəbul edilməsində ulu öndərimiz Heydər Əliyevin xidmətləri xüsusi olaraq qeyd edilmişdir. Oxucuları maraqlandıran məsələlər ətrafında fikir mübadiləsi aparılmış, mövzu ilə əlaqədar dövri mətbuat səhifələrində dərc olunan müxtəlif yazılar onların diqqətinə çatdırılmışdır.

2008-ci il 6 oktyabr tarixli "Azərbaycan Respublikasında kitabxana- informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı"nda kitabxana-informasiya sahəsində yeni texnologiyaların tətbiqi və istifadəsi nəticəsində müasir kitabxana-informasiya infrastrukturunun yaradılması, istifadəçilərə göstərilən kitabxana-informasiya xidmətinin dünya standartları səviyyəsinə çatdırılması vəzifə kimi qarşıya qoyulmuşdur. Bizim kitabxanada açılan İnformasiya Mərkəzi məhz bu istiqamətdə görülən işlərdəndir. Bu layihə Bakı Şəhər Mədəniyyət və Turizm İdarəsinin, M.F. Axundov adına Milli Kitabxananın yaxından iştirakı ilə həyata keçirilən ilk layihələrdəndir. Mərkəzin yaradılmasında əsas məqsəd əhalinin informasiyaya olan tələbatının daha geniş və operativ şəkildə ödənilməsindən ibarətdir. İnformasiya Mərkəzi ilə yanaşı kitabxananın saytı və elektron kataloqu da istifadəçilərin ixtiyarına verilmişdir.

Kitabxananın saytı baku-mskf.az ünvanında yerləşdirilmişdir. Bu ünvana daxil olarkən kitabxanamız haqqında geniş məlumat əldə etmək olar. Saytımız bir neçə bölmədən ibarətdir. Həmin saytda xəbərlər, kitabxana haqqında məlumat, struktur, şöbələr və bu kimi məlumatlar yerləşdirilmişdir. Bütün bunlarla yanaşı, kitabxanaya yazılma, istifadə qaydaları, iş vaxtı, əlaqə vasitələri ilə də tanış olmaq mümkündür.

Kitabxananın saytında elektron kataloq haqqında da məlumat əldə etmək olar.

Elektron kataloqa ilk olaraq prezident İ. Əliyevin sərəncamı ilə nəşr olunan latın qrafikalı Azərbaycan dilində ədəbiyyat daxil edilmişdir. Bununla yanaşı, məlumat bazasında latın və kiril qrafikasında digər ədəbiyyat nümunələri və rus dilində yeni ədəbiyyat da öz əksini tapmışdır. Kitabxananın elektron kataloquna 1051 adda, 9101 nüsxə ədəbiyyatın biblioqrafik təsviri daxil edilib. Elektron kataloq Milli Kitabxana ilə əməkdaşlıq şəraitində "Virtua" avtomatlaşdırılmış kitabxana proqramı əsasında yaradılmışdır. Elektron kitabxana bölməsinə daxil olarkən Milli Kitabxananın elektron bazasından istənilən məlumatı öz oxucularımıza çatdırırıq.

Saytda Heydər Əliyev Fondu, Azərbaycan Milli Kitabxanası, Azərbaycan Kitabxanaları, Avropa Kitabxanaları saytlarına daxil olmaq üçün baynerlər qoyulmuşdur.

Kitabxanamızın saytı Azərbaycan Respublikasının Milli Kitabxanası tərəfindən hazırlanmışdır.

Aprelin 10-da M.Qorki adına MSKF-də Bakı şəhərinin Qaradağ və Səbail rayonlarının kitabxanalarına metodiki kömək məqsədilə seminar keçirilib.

Seminarda Kitabxana Direktorları Şurasının üzvləri, kitabxana rəhbərləri və işçilər iştirak etdilər. Seminarın gündəliyinə qabaqcıl kitabxanaların təcrübəsinin öyrənilməsi, yeni iş metodlarının tətbiqi, oxuculara xidmətin daha yüksək səviyyəyə qaldırılması və kitabxanaçılara faydalı olan digər məsələlər daxil edilmişdi. Aprelin 28-də Bakı Şəhər Mədəniyyət və Turizm İdarəsinin təşəbbüsü ilə M.Qorki adına Mərkəzi Səyyar Kitabxana Fondunda dramaturq, Azərbaycan Yazıçılar Birliyinin üzvü, əməkdar incəsənət xadimi, Prezident mükafatçısı Rəhman Əlizadənin yeni çap olunan "Pyeslər" kitabının təqdimatı oldu.

Tədbirdə Bakı Şəhər Mədəniyyət və Turizm İdarəsinin rəisi Əlikram Əliyev, Azərbaycan Respublikasının xalq artistləri Afaq Bəşirqızı, Azər Paşa Nemətov, əməkdar incəsənət xadimi, rejissor Vaqif İbrahimoğlu, "Yuğ" Dövlət Teatrının aktyoru, "Qızıl Dərviş" mükafatı laureatı, Prezident mükafatçısı Məmməd Səfa, əməkdar mədəniyyət işçisi, teatrşünas Atababa Hacıbabayev, M. Ə. Sabir adına kitabxana-klubun direktoru Firəngiz Bəkirzadə, S.Vurğun adına Xətai rayon MKS-in direktoru Oruc Quliyev və başqaları iştirak etdilər.

Təqdimat mərasimində çıxış edən sənət adamları dramaturqun yaradıcılıq dəst-xəttindən söz açdılar və kitabın nəşri münasibətilə yazıçını təbrik edərək ona yeni yaradıcılıq uğurları arzuladılar.

Bakı Şəhər Mədəniyyət və Turizm İdarəsinin rəisi Əlikram Əliyev sənətkarın əsərlərinə olan marağı bu əsərlərin müasir dövrümüzlə səsləşməsinin təzahürü kimi qiymətləndirdi və kitabın nəşri münasibətilə sənətkarı təbrik etdi. Sonda Rəhman Əlizadə tədbirin təşkilatçılarına və iştirakçılara minnətdarlığını bildirdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 6 fevral 2009-cu il tarixli sərəncamına əsasən Azərbaycanın Xalq yazıçısı Mehdi Hüseynin anadan olmasının 100 illik yubileyinin qeyd edilməsi respublikanın mədəni həyatında baş verən mühüm hadisələrdən biridir. 2009-cu il iyulun 7-də yazıçının yubileyi münasibətilə M. Qorki adına MSKF-də ədəbi-bədii gecə keçirildi. Gecədə ədəbiyyat, teatr xadimləri, musiqiçilər,



İnformasiya Mərkəzinin açılışı zamanı

məktəb və kitabxana kollektivlərinin nümayəndələri, oxucular iştirak etdilər. Tədbirdə yazıçının yaradıcılıq yoluna nəzər salındı, onun ədəbiyyatımızdakı rolu, əsərlərinin tərbiyəvi əhəmiyyəti haqqında fikirlər söyləndi, əsərlərindən nümunələr səsləndirildi. Tədbirdə həmçinin, yazıçının tədqiqat əsərlərindən və bədii yaradıcılığından ibarət kitab sərgisi nümayiş olundu.

Hesabat dövründə qeyd olunan tədbirlərlə yanaşı kitabxanada uşaqların informasiya tələbatı probleminin həlli istiqamətində də müəyyən işlər görülmüşdür. Məktəbli oxucuların maraq, mütaliə, kitaba münasibətinin öyrənilməsi, onların dünyagörüşünün genişləndirilməsi məqsədilə sorğu aparılmış, əldə edilən nəticələr təhlil edilmiş və iş prosesində onlardan istifadə imkanları müəyyənləşdirilmişdir.

Şəhərin mədəni həyatı kitabxananın işində daim əks olunur.

İslam Konfransı Təşkilatı Bakı şəhərini 2009-cu il üçün" İslam Mədəniyyətinin Paytaxtı" elan etmişdir. Bununla əlaqədar kitabxanada "İslam mədəniyyəti kitab səhifələrində" adlı kitab sərgisi hazırlanmış, "Bakı-İslam Mədəniyyəti Paytaxtı-2009" adlı kartoteka tərtib edilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə 2009-cu il Azərbaycanda "Uşaq İli" elan olunduğundan kitabxanada tədbirlər həyata keçirilmişdir. Bu məqsədlə kitabxananın məktəbli oxucuları arasında "Mənim kitab dünyam" adlı rəsm və əl işlərindən ibarət müsabiqə keçirilmişdir.

Bakı Şəhər Mədəniyyət və Turizm İdarəsi tərəfindən kitabxanalarda ən fəal oxucuların müəyyən olunması məqsədilə "Kitabla dost ol, ən fəal oxucu ol!" devizi altında keçirilən müsabiqə qaliblərinin mükafatlandırılmasına həsr olunan tədbir oktyabrın 27-də kitabxanamızda gerçəkləşdirilmişdir.

Tədbirdə Mədəniyyət və Turizm Nazirliyinin, Bakı Şəhər İcra Hakimiyyətinin, Bakı Şəhər Mədəniyyət və Turizm İdarəsinin nümayəndələri, yazıçı və şairlərdən İlyas Tapdıq, Natiq Rəsulzadə, Gülzar İbrahimova, Gülarə Munis, professor Gülrux Əlibəyli, hərb tariximizin tədqiqatçısı, jurnalist Şəmistan Nəzirli və başqa görkəmli elm və sənət adamları iştirak etdilər. Tədbirdə M.Seyidzadə adına Kitabxana-Uşaq İnformasiya Mərkəzi Kitab Mağazası, "Kitab klubu" və "Beşik" nəşriyyatının təşkil etdiyi kitab sərgisinin nümayişi oldu.

Tədbirdə Bakı Şəhər Mədəniyyət və Turizm İdarəsinin rəisi Əlikram Əliyev müsabiqə haqda ətraflı məlumat verdi. O, kitabın, mütaliənin, kitabxananın insan həyatındakı əhəmiyyətini xüsusi vurğuladı. Kitaba, kitabxanalara marağın artırılması istiqamətində aparılan işlərin gələcəkdə də davam etdiriləcəyinə uşaqları bir daha əmin etdi.

Tədbirdə müsabiqənin qalibləri fəxri fərman və hədiyyələrlə mükafatlandırıldılar.

● **Nüşabə ƏLƏKBƏROVA,**
***M.Qorki adına***
***MSKF-nin direktoru***




**"Kitabla dost ol, ən fəal oxucu ol!" müsabiqəsi**